

# Pəhləvini hakimiyyətə gətirsələr...



**Əli Mustafa:**
***"Pezeşkian Güney Azərbaycanın müstəqilliyini elan edə bilər"***

**Son günlər İranda davam edən etirazlar fonunda bəzi qüvvələr yenidən şah rejimini qurmaq istəyirlər.**

Belə ki, şahın oğlu Rza Pəhləvi hakimiyyətə gəlmək üçün iddiasını ortaya qoyub və mütəmadi şəkildə sosial şəbəkələrdə paylaşımlar edir. Üstəlik, İsrail və ABŞ tərəfindən də dəstəklənir.

Faktiki olaraq, İranda molla rejiminin yerinə yenidən şah rejiminin gəlməsini istəyirlər. Xalq buna kəskin etiraz edir. Lakin son günlərdə etirazlar zamanı Rza Pəhləviyə dəstək şüarları səsləndirənləri də görürük.

Əlbəttə ki, bunların məqsədyönlü şəkildə atılan addımlar olduğu heç kimə sirr deyil. Çünki xalq Rza Pəhləviyə etimad etmir. Hətta aksiyalarda "Azərbaycan şərəfdir, Pəhləvi bişərəfdir" kimi şüarlar belə səsləndirirlər.

Ancaq bütün bunlara baxmayaraq, hansısa formada Rza Pəhləvinin İranda hakimiyyətə gətirilmə ehtimalı gündəmə gəlsə, nə olacaq? Bu zaman İranın legitim Prezidenti Məsud Pezeşkian Təbrizin paytaxt olduğu Güney Azərbaycanın müstəqilliyini elan edə bilərmi?

"Cebheinfo.az"-a açıqlamasında politoloq Əli Mustafa bildirib ki, bu ehtimalın reallaşması mümkündür:

"Məsud Pezeşkian İranın Prezidentidir, amma xalq ona etiraz etmir. Etirazlar sadəcə molla rejiminə qarşı yönəlib. Hansı ki, məhz bu rejim Prezidentin də normal fəaliyyət göstərməsinə əngəl olur.

İran xalqı Pezeşkianı legitim hakimiyyət kimi qəbul edir və dövlətin başında mollaların deyil, onun olmasını istəyirlər. Bunun İran xalqı və bölgə üçün ən optimal mövqe olduğunu düşünürəm".

Lakin ekspert qeyd edib ki, bəzi qüvvələr Rza Pəhləvinin hakimiyyətə gəlməsi üçün çalışırlar:

"ABŞ, İsrail və bəzi Avropa ölkələrinin onun arxasında dayandığı görünür. Əslində bu məsələdə ölçüb-biçib qərar vermək lazımdır. Bu gün İran xalqının böyük əksəriyyəti şah rejiminin yenidən qurulmasını istəmir. O dönəm artıq geridə qalıb.

Maraqlıdır ki, Rza Pəhləvinin ali təhsili belə yoxdur. Belə bir adamı dövlətin başına keçirmək istəyirlər. Hesab edirəm ki, ABŞ Pəhləvini hakimiyyətə gətirməklə yenidən İranı idarə etmək istəyir. Ancaq bu istəyin perspektivi yoxdur".

Əli Mustafa diqqətə çatdırıb ki, Pəhləvini hakimiyyətə gətirsələr, Pezeşkian Güney Azərbaycanın müstəqilliyini elan edə bilər:

"Onun buna haqqı var. Pezeşkian Güney Azərbaycanı şah rejimindən qopara bilər. Bütün İran xalqının Pezeşkianın bu addımını dəstəkləyəcəyini düşünürəm. Bu gün orada normal sosial sorğu keçirilsə, Pezeşkian Pəhləviyə qarşı 90 faizdən artıq səs yığar. Türk və islam dünyası da onu dəstəkləməlidir".

Həmsöhbətimiz söyləyib ki, İranda şah rejiminin yenidən qurulması bəşəriyyətə təhqirdir:

"Dünyanın 1 nömrəli demokratik ölkəsi hesab olunan ABŞ də bu plandan imtina etməlidir. Çünki bu, ABŞ-nin nüfuzunu da yaraşmayan biabırçılıq olar.

İnsan haqlarından, demokratiyadan danışan bir dövlətin gerilikçi bir rejim qurmaq istəməsi İran xalqına hörmətsizlikdir. Əksinə, İran xalqına öz seçimlərini etmələri üçün dəstək vermək lazımdır. Pəhləvi hakimiyyətə gəlsə, bölgədə yeni müharibələr ola bilər. Ona görə də ən arzuolunmaz seçim odur".

**Elmir Mustafa**